**"Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarına əlavələr edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 1, maddə 44, 6, maddə 589) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası" cədvəlinin 1-ci bəndində "mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri" sözlərindən sonra ",Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasının sədri" sözləri, 2-ci bəndində isə "mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin müavinləri" sözlərindən sonra ",Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası sədrinin müavini" sözləri əlavə edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 24 dekabr 2008-ci il
280